# Sumqayıt Dövlət Universitetində ənənəvi "Açıq qapı"

***Sumqayıt Dövlət Universitetinin rektorluğu yanında ictimai nəzarət və məsləhət şurasının üzvləri, valideynlər və KİV nümayəndələrinin iştirakı ilə 2019–2020-ci tədris ilinin payız semestrinin imtahan sessiyasına dair ənənəvi "Açıq qapı" günü keçirilib.***



Universitetin humanitar məsələlər üzrə prorektoru, dosent Ramiz Hüseynov tədbirdə imtahan sessiyasında obyektivliyin, şəffaflığın təmin olunması ilə bağlı aparılan məqsədyönlü tədbirlər haqqında geniş məlumat verib. Bildirib ki, imtahanlar bir qayda olaraq yazılı şəkildə aparılır. Tələbələrin yazılı sənədləri imtahan başa çatdıqdan sonra kodlaşdırılır, yoxlanılması üçün dəvət edilən müəllimlərə təhvil verilir.

Sessiyanın gedişində yarana biləcək narazılıqların araşdırılması və aradan qaldırılması məqsədilə imtahan qərargahı və "Qaynar xətt" fəaliyyət göstərir. İmtahan keçirilən tədris binalarında "Müraciət və təkliflər" qutuları yerləşdirilib. İmtahanların gedişi auditoriyalarda quraşdırılan kameralar vasitəsilə də izlənilir, koordinatorlar tərəfindən nəzarət olunur.

İmtahanların nəticələri barədə şikayətlərə baxmaq və aşkar edilən çatışmazlıqları aradan qaldırmaq məqsədilə qərargahın nəzdində apellyasiya komissiyası da yaradılıb. Komissiya istənilən məsələ ilə əlaqədar tələbələrin şikayətlərini qəbul edir və əsaslıdırsa, aradan qaldırır.

Prorektor onu da diqqətə çatdırıb ki, imtahanların bu üsulla aparılması tam obyektivliyin təmin olunmasına xidmət edir.

Sessiyanın obyektiv və qaydalara uyğun təşkilinə kömək məqsədilə universitetdə fəaliyyət göstərən Tələbə Gənclər Təşkilatı və Tələbə Elmi Cəmiyyətinin üzvləri fəal iştirak edirlər. Həmçinin ictimaiyyət və KİV nümayəndələri, valideynlər üçün vaxtaşırı "Açıq qapı" günü təşkil olunur. Universitetin nəzdindəki Texniki Kollecdə də imtahanlar eyni qaydada həyata keçirilir.

"Açıq qapı" günündə Tədris Metodik Mərkəzin direktoru Faiq Şirinov imtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi haqqında məlumat verib. Bildirib ki, imtahanların obyektiv, ədalətli və şəffaf keçirilməsini reallaşdırmaq, qiymətləndirmədə biliyi yeganə meyar götürmək əsas iş prinsipidir.

Tədris Metodik Mərkəzin direktoru daha sonra deyib: " Əvvəlcə yazı işləri müvafiq olaraq kodlaşdırılır, sonra tələbənin şəxsi məlumatları olan hissə kəsilərək ayrılır. Bundan sonra müəllim yoxlamaya başlayır. Yoxlama başa çatdıqdan sonra cavab vərəqələri ilə kəsilmiş hissə müvafiq kod ardıcıllığı ilə uyğunlaşdırılır, tələbənin balı ümumi bal vərəqinə yazılaraq yekun qiymət çıxarılır. Diqqət tələb edən bu prosesin tətbiqi olduqca zəruridir. Çünki bu halda imtahan müəllimi hansı tələbənin cavabını yoxladığını bilmir, bu da prosesə subyektiv yanaşmanı aradan qaldırır və daha obyektiv qiymətləndirmənin aparılması ilə nəticələnir".

Sonra universitetin rəhbərliyi, valideynlər və KİV nümayəndələri ayrı-ayrı auditoriyalarda imtahan prosesini müşahidə ediblər, tələbələrin imtahanların gedişinə münasibətləri ilə maraqlanıblar.

Müşahidəçilər imtahanların müşahidə kameraları quraşdırılan xüsusi auditoriyalarda keçirilməsini, bununla yanaşı, hər auditoriyada müəllim-əlaqələndiricilərin nəzarət etmələrini, imtahan prosesində baş verə biləcək mənfi halların qarşısının alınması üçün lazımi tədbirlərin görülməsini yüksək dəyərləndiriblər.

Sözügedən prosesin müşahidəsi zamanı bir qrup tələbə ictimai şuranın üzvləri ilə imtahan təəssüratlarını bölüşərək, yaradılan şəraitdən və imtahanların gedişindən razı qaldıqlarını diqqətə çatdırıblar.

***Rövşən ATAKİŞİYEV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020. 23 yanvar.-S.10.